

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblagahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 240 (21.141)

17 dekabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sabirabad regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, Sabirabad regional "ASAN xidmət" mərkəzinin dördmərtəbəli binasının tikintisi ən yüksək standartlara uyğun həyata keçirilib. Həyətdə uşaq avtoşəhərciyi yaradılıb və burada balacaların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün bütün şərait var.

Binada müasir müstəqil Azərbaycanın inkişafında mühüm xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü qoyulub.

* * *

Dekabrın 16-da Sabirabadda, Heydər Əliyev Mərkəzində ASAN Könüllülərinin I Ümumrespublika Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı mərasimdə nitq söylədi.



# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti

**Ulu öndər Heydər ƏLİYEV:** ***Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir.***



*(Əvvəli qəzetin ötən sayında)*

Son illərdə büdcədən maliyyələşdirilən təşkilatlarda işçilərin əməkhaqları bir neçə dəfə artırılmış, böyük qrup ədəbiyyat, incəsənət və elm xadimlərinə, habelə gənc istedadlara fərdi təqaüdlər müəyyən edilmişdir. Məsələn, 1999-cu il avqustun 1-dən dövlət büdcəsindən maliyyələşdirilən bir sıra müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların əməkhaqları 1,8 dəfə, 2000-ci il yanvarın 1-dən təhsil işçilərinin, aprelin 1-dən elm, mədəniyyət və sosial təminat sahələrində çalışan işçilərin əməkhaqları 25 faiz artırılmışdır.

2000-ci il yanvarın 1-dən əməkhaqqının vergi tutulmayan minimum həddi 60 min manatdan 100 min manata qaldırılmışdır ki, bu da ölkə vətəndaşlarının real gəlirinin artmasına xeyli imkan yaradır.

Ölkədə vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində orta aylıq pensiyanın məbləği 2 dəfədən çox artmışdır.

2000-ci il ərzində işləməyən əhaliyə ödənilək pensiya və müavinətlər vaxtlı-vaxtında ödənilmişdir. Hazırda bu sahədə praktik olaraq borc qalmamışdır və yaxın günlərdə dekabr ayı üzrə pensiya və müavinətlər tamamilə ödəniləcəkdir. 1999-cu ildə əhaliyə ödənilən pensiyaların məbləği 635 milyard manat olduğu halda, cari ildə 810 milyard manata çatmış və ya 16,5 faiz artmışdır. Müavinətlər isə keçən illə müqayisədə 12,7 faiz çoxalmışdır.

Son vaxtlarda Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin bir qrupu dövlət vəsaiti hesabına minik maşınları və mənzillərlə təmin olunmuşdur. Əlilləri fəal iqtisadi həyata qaytarmaq üçün əlillərin reabilitasiya mərkəzi fəaliyyətə başlamışdır.

Məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədilə onlara yemək xərci üçün verilən aylıq müavinət 2000-ci il yanvarın 1-dən 3,5 dəfə artırılmışdır.

Ölkədə qaçqınların və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etmək və onların sosial müdafiəsini gücləndirmək məqsədilə dövlət proqramı qəbul edilmişdir (1998-ci il, 17 sentyabr). Həmin dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədilə 1999-cu ilin dekabr ayında məcburi köçkünlərin sosial inkişaf fondu yaradılmışdır.

Əhalinin müdafiəsinin yaxşılaşdırılması hər vaxt dövlətin diqqət mərkəzində olan məsələdir. Ölkənin sosial-iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca, müvafiq olaraq, belə tədbirlər də həyata keçiriləcəkdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin möhkəm təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır. Yeni minilliyin başlanğıcı iqtisadi islahatların dərinləşməsində dönüş mərhələsi olacaq və onun əsas istiqamətləri iqtisadiyyatın strukturunun yenidən qurulması və yeni şəraitə uyğun təsisat dəyişikliklərinin həyata keçirilməsindən ibarət olacaqdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, postsovet məkanının digər ölkələri kimi, respublikamız da keçid dövrünü yaşayır. Ölkənin iqtisadiyyatında həmin dövrün tələblərindən doğan bir sıra obyektiv çətinliklər, problemlər vardır. Ərazimizin 20 faizinin erməni qəsbkarları tərəfindən işğal olunması, bir milyondan çox vətəndaşımızın qaçqın və köçkünlərə çevrilərək ağır şəraitdə yaşamağa məcbur olması mövcud vəziyyəti daha da mürəkkəbləşdirir. Əsasən obyektiv xarakter daşıyan bu problemlər vətəndaşlarımızın böyük bir qismini çətin sosial-iqtisadi vəziyyətdə yaşamağa vadar edir. Əhalinin bir hissəsinin maddi sıxıntılar içərisində, ağır vəziyyətdə yaşaması hamımızı narahat edir, incidir. Onu bilməliyik ki, bütün bu problemlər, sıxıntılar, çətinliklər yalnız müvəqqəti xarakter daşıyır. Xalq əmin olmalıdır ki, respublika rəhbərliyi bu sahədə yaranmış vəziyyətin ağırlığını dərk edir və onun aradan qaldırılması üçün bütün mövcud imkanlardan lazımınca istifadə edir və bundan sonra da edəcəkdir. Son illərdə ölkə həyatının müxtəlif sahələrində əldə olunmuş nailiyyətlərimiz onu qətiyyətlə deməyə əsas verir ki, bizi narahat edən problemlərin həlli yolunda qarşıdakı yaxın illərdə mühüm addımlar atılacaq, xalqımızın üzləşdiyi bir çox sosial-iqtisadi çətinliklər aradan qaldırılacaq, vətəndaşlarımızın rifah halı yaxşılaşacaq və onlar layiq olduqları firavan həyata qovuşacaqlar.

Biz Azərbaycanda bu gün əsl vətəndaş cəmiyyəti qururuq. Çoxsaylı ictimai təşkilatlar, partiyalar, müxtəlif fondlar və cəmiyyətlər, vətəndaş cəmiyyətinin strukturunu təşkil edərək Azərbaycanın bir çox mühüm məsələlərinin həllində dövlətlə uğurlu əməkdaşlıq edirlər. Biz Azərbaycanda demokratiyanın inkişafını, sözün həqiqi mənasında, təmin etmək üçün çox səylər göstəririk.

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir. Ölkəmizdə demokratik inkişaf üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Respublikada müxtəlifyönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, yüzlərlə mətbuat orqanının senzurasız sərbəst nəşr edilməsi, özəl televiziya və radio kanallarının öz verilişlərini manеəsiz efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratiya ab-havasının hökm sürməsinin konkret əyani nəticələridir. Elə bəzi bədxahların "Azərbaycanda demokratiya yoxdur", – deyə car çəkməsi və buna görə də heç bir təzyiqə və təqibə məruz qalmamasının özü ölkəmizdə demokratiyanın mövcud olmasına tutarlı dəlildir. Eyni zamanda unutmamalıyıq ki, bütün bunları biz cəmi 9 il ərzində əldə etmişik. Bu illərin də bir neçəsi Azərbaycanda hökm sürmüş siyasi çəkişmələr, hərc-mərclik, özbaşınalıq dövrünə təsadüf edir. Hələ də qonşu Ermənistanla müharibə şəraitində yaşamağa məcbur olan Azərbaycanda demokratik inkişaf yolunda belə az müddət ərzində əldə edilmiş nailiyyətlər, həqiqətən də, olduqca böyükdür. Onu təkcə biz yox, yüz illər ərzində demokratiya yolu keçmiş bir çox xarici ölkələrin nümayəndələri də təsdiq edirlər.

2000-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçki kampaniyası da bunu bir daha nümayiş etdirdi. Deputatlığa namizədlər üçün seçkilərdə tam bərabər şəraitin yaradılması, siyasi partiyaların seçkilərdə iştirak etməsi yolunda hər cür əngəllərin aradan qaldırılması, seçkilərin azad, demokratik, obyektiv keçirilməsi üçün bütün lazımi tədbirlərin görülməsi respublikamızın qısa bir müddət ərzində demokratiya yolunda artıq böyük təcrübə topladığını əyani şəkildə göstərir.

Bəzilərinin güman etdiyi kimi, demokratiya xaos, hərc-mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Demokratiyanın hüdudları genişdir. Odur ki, o, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir. Ona görə nə burada, nə də Azərbaycandan kənarda heç kəs narahat olmasın: Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu, bizim strateji kursumuzun mahiyyətini təşkil edir və biz heç vaxt bu yoldan dönməyəcəyik.

Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə, yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, Azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir.

Müstəqillik illərində biz, əslində, milli-mədəni irsimizi, tariximizi, milli sənətimizi bir daha təhlil edərək, onu ideoloji buxovlardan və qadağalardan xilas edirik. Bununla yanaşı, biz Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış edirik. Məhz müstəqillik dövründə biz Füzulinin 500 illiyini keçirdik. Əsl poeziya bayramına, milli mədəniyyət bayramına çevrilən bu təntənələr, digər tərəfdən, Azərbaycan dövlətçiliyinin, Azərbaycanın müstəqilliyinin bayramı idi. Müxtəlif ölkələrdən, YUNESKO-dan bu yubileyə gələn insanlar Füzuli poeziyası vasitəsilə Azərbaycanı tanıyır, onun həqiqətlərini dünyaya çatdırırdılar.

Əsrlərin və minilliklərin qovuşduğu bu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlətlər başçılarının, dünya qorqudşünaslarının iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyini qeyd etdi. Təqiblərə məruz qalmış bu epos, nəhayət ki, müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır.

*(Ardı qəzetin növbəti sayında)*

# “Muxtariyyətin intibahı: 1995-2014” yaradıcılıq müsabiqəsinin mükafatlandırma mərasimi keçirilmişdir

*Dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə keçirilən “Muxtariyyətin intibahı: 1995-2014” yaradıcılıq müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi olmuşdur.*

Mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev açaraq bildirmişdir ki, son 19 ildə muxtar respublikada bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur. Bu uğurlardan gənclərə də xeyli pay düşür. Bu gün gənclər muxtar respublikamızın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edir, gənc istedadlara dövlət qayğısı artırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması isə muxtar respublikada gənclər sahəsində görülən işlərə daha bir təkan vermişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş “Muxtariyyətin intibahı: 1995-2014” yaradıcılıq müsabiqəsi cari ilin iyul ayının 19-u elan olunmuş və noyabr ayının 30-dək davam etmişdir. Müsabiqənin keçirilməsində məqsəd Naxçıvanın 90 illik muxtariyyət tarixinə nəzər salmaq, gənclərin bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, onların bacarıqlarını üzə çıxarmaqdan ibarət olmuşdur. Teleradio verilişi, qəzet məqaləsi, videoçarx, rəsm əsəri, ədəbi yaradıcılıq və fotoreportaj kateqoriyaları üzrə keçirilən müsabiqəyə 65 iştirakçı tərəfindən 36 teleradio verilişi və videoçarx, 26 qəzet məqaləsi, 11 rəsm əsəri, 16 ədəbi yaradıcılıq nümunəsi və 4 fotoreportaj olmaqla, ümumilikdə, 93 material təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən elan olunmuş “Muxtariyyətin intibahı: 1995-2014” yaradıcılıq müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasiminin bu gün keçirilməsi təsadüfi xarakter daşımır. Çünki Naxçıvan Muxtar Respublikasının intibahı məhz 1995-ci il dekabrın 16-dan başlayır. Həmin tarixdə cənab Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmiş və bununla da, muxtar respublikanın inkişafında yeni bir mərhələnin – intibah dövrünün əsası qoyulmuşdur. Son 19 ildə muxtar respublikada ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi bu qədim diyarı yeni inkişaf mərhələsinə yüksəltmişdir. Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı, ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi yaradıcılıq təşkilatlarını, xüsusilə kütləvi informasiya vasitələrini də əhatə etmişdir. 1995-ci ildən ötən dövr ərzində muxtar respublikada aparılan quruculuq tədbirləri zamanı kütləvi informasiya vasitələrinin fəaliyyətinin yaxşılaşdırılması da diqqət



mərkəzində saxlanılmış, hər bir sivil cəmiyyətin əsas inkişaf göstəricisi hesab olunan söz, fikir və məlumat azadlığı təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamı kütləvi informasiya vasitələrinin inkişafı sahəsində taleyüklü dövlət sənədinə çevrilmiş, muxtar respublika mətbuatını yeni inkişaf müstəvisinə çıxarmışdır. Muxtar respublikada digər yaradıcılıq təşkilatlarının fəaliyyətinin gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görüldüyünü bildirən Rəhman Məmmədov demişdir ki, son illər Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi üçün yeni bina tikilərək istifadəyə verilmiş, birliyin rəsmi internet saytı yaradılmış, gənclər bölməsi təşkil edilmişdir. Həmçinin muxtar respublikada gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün də hərtərəfli şərait vardır. Muxtar respublikada ədəbi mühitin inkişafı da daim diqqət mərkəzində saxlanılır. Son illər şair və yazıçıların fəaliyyəti üçün zəruri tədbirlər görülmüş, onların yaradıcılıq imkanları xeyli genişləndirilmişdir.

Vurğulanmışdır ki, Ali Məclisin Sədri yaradıcılıq təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsinə qayğı göstərməklə bərabər, həm də bu sahədə çalışanlara daim mənəvi dəstək verir, onların fəaliyyətini yüksək qiymətləndirir. Artıq muxtar respublikadakı mövcud yaradıcılıq mühiti hər bir əməkdaşa istənilən mövzuda sərbəst material hazırlamağa, araşdırma aparmağa imkan verir. Bütün bunlar son illər əməkdaşların yaradıcılıq axtarışlarının genişlənməsinə, yaradıcılıq təşkilatlarının istedadlı gənclərlə komplektləşdirilməsinə səbəb olmuşdur. Ona görə də muxtar respublikanın bugünkü tarixinin yazılması və olduğu kimi gələcək nəsillərə çatdırılması qarşıda duran ən mühüm vəzifədir. Hər bir yaradıcı şəxs çalışmalıdır ki, öz əsərində doğma Vətənimizi, onun bir parçası olan Naxçıvanın tərənnüm etsin. Bugünkü inkişaf, yeniləşmə, aparılan kompleks quruculuq işləri gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli və “Şərq qapısı” qəzetinin baş redaktoru Tural Səfərov çıxış edərək qalibləri təbrik etmiş, bu cür müsabiqələrin istedadlı gənclərin üzə çıxarılması baxımından mühüm əhəmiyyət daşıdığını bildirmişlər.

Sonra qaliblər mükafatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvü, şair Qafar Qərib, “Şərq qapısı” qəzetinin əməkdaşı Sara Əzimova və Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist, tədqiqatçı Peter Tase birinci, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, gənc rəssam Tural Həsənli, “Oğuz səsi” qəzetinin redaktoru Şəhla Nəbiyeva və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Ruhiyyə Rəsulova ikinci, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Ramal Məmişov, “Naxçıvanın səsi” radiosunun əməkdaşı Vüsal Məmmədov və “Şərqin səhəri” qəzetinin redaktoru Hafizə Əliyeva üçüncü yerlərə layiq görülmüşlər.

Qaliblərə pul mükafatı və diplomlar təqdim olunmuşdur. Müsabiqədə 5 nəfərə həvəsləndirici mükafatlar verilmiş, digər iştirakçılara hədiyyələr təqdim olunmuşdur.

Müsabiqə qaliblərindən Qafar Qərib, Elxan Yurdoğlu və Sara Əzimova çıxış edərək yaradıcılıq təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsinə və bu sahədə çalışanlara göstərdiyi yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıqlarını bildirmişlər.

**Səbuhi HƏSƏNOV**

# Tədris prosesinin təkmilləşdirilməsinə və müasir təhsil konsepsiyalarına həsr olunmuş beynəlxalq elmi konfrans



*Naxçıvan Dövlət Universitetində “Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.*

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkil etdiyi konfransın plenar iclasını giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından konfrans iştirakçılarını salamlayıb.

Qeyd olunub ki, muxtar respublikada bütün sahələr kimi, təhsilin də inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir. Onlar müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunurlar. Bu diqqət və qayğı sayəsində son 10 ildə 150-yə yaxın məktəb binası tikilib istifadəyə verilib, hazırda bu sahədə işlər davam etdirilir. Təhsil müəssisələri 3500-dən çox kompüterlə təmin edilib, onların 84 faizi internetə qoşulub, 600-ə yaxın elektron lövhə quraşdırılıb. Təhsilə göstərilən dövlət qayğısı ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbuluna da öz müsbət təsirini göstərib. Belə ki, 2014-2015-ci tədris ili üzrə ali məktəblərə qəbul olan məzunların 347-si qəbul imtahanlarında 500-700 intervalında bal toplayıb ki, bu da ötən illə müqayisədə 11 faiz çox olub. Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi də diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu kateqoriyadan olan uşaqların təhsilə cəlbində mühüm rol oynayıb. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılıb, bu kateqoriyadan olan 19 uşaq kompüter, məktəbli geyim və ləvazimatları ilə təmin olunub.

Bildirilib ki, muxtar respublikada elektron təhsilin tətbiqi, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılması, tədrisin əyaniliyi və səmərəliliyinin artırılması məqsədilə Ali Məclisin Sədri “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncam imzalayıb. Bu sərəncama əsasən, Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradılır ki, bu da şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artırılmasında mühüm rol oynayır.

Elm və bilik tərəqqinin əsasıdır. Elmsiz və təhsilsiz heç bir cəmiyyət inkişaf edə və irəliyə gedə bilməz. Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə Ali Məclisin Sədri yanında Bilik Fondu, həmçinin elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatları təsis edilib, Mükafat Komissiyası yaradılıb. Bütün bunlar muxtar respublika əhalisinin maarifləndirilməsi, gənclərin biliklərinin artırılması, Naxçıvanşünaslığın təbliği, yaradıcı ziyalıların müasir tələblərə cavab verən yüksəksəviyyəli əsərlər yaratmağa təşviq edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Ali və orta ixtisas təhsili müəssisələrində təhsilin, elmin inkişafı, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilib, müxtəlif ixtisaslar üzrə mütəxəssislər, elmi-pedaqoji kadr hazırlığı, yeni təhsil standartlarına keçidlə əlaqədar mühüm işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri çıxışının sonunda növbəti beynəlxalq elmi konfransın elmi fikirlərin müzakirəsi və qarşılıqlı elmi əlaqələrin yaradılması baxımından böyük əhəmiyyət kəsb edəcəyini vurğulayıb.

Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanov “Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası və təhsil sistemi qarşısında duran vəzifələr” haqqında məruzə edərək ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyasının bugünkü uğurlu davamından, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş dövlət strategiyasının təhsilin tərəqqisinə verəcəyi töhfələrdən, milli təhsilin insan kapitalına olan tələbatı ödəyəcək, dünya standartlarına cavab verəcək səviyyəyə çatdırılması istiqamətində görülən işlərdən, Heydər Əliyev Fondu tərəfindən çoxsaylı müasir məktəbəqədər tərbiyə müəssisələri və orta məktəblərin tikilib istifadəyə verilməsindən, tədrisin keyfiyyətində edilən əsaslı dəyişikliklərin 2020-ci ildə Azərbaycanın inkişaf etmiş dövlətlər sırasına çıxmasına xidmət etməsindən danışıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov “Bolonya prosesi: Naxçıvan Dövlət Universiteti qarşısında duran vəzifələr” mövzusundakı məruzəsində bildirib ki, universitet 2009-cu ildən Bolonya prosesinə qoşulub və 2012-ci ildən bu prosesin tətbiqinə başlanılıb. Hazırda bu ali məktəb Bolonya sisteminin tam tətbiqi, tədrisin kredit sisteminə uyğun qurulması, müəllim-tələbə mobilliyi, elektron təhsil şəbəkəsinin yaradılması istiqamətində mühüm uğurlar qazanmaqla yanaşı, muxtar respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin də Bolonya sisteminə keçmələrinə yaxından köməklik göstərir.

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov “Təhsildə yeni hədəflərə yol – müasir məktəb və innovativ müəllim” adlı məruzəsində Azərbaycanda müasir dövrdə təhsil sahəsində aparılan islahatların qarşıya qoyduğu prioritet vəzifələr, tədris prosesində, pedaqoji kadr hazırlığında məzmun dəyişikliyi, ənənəvi metodlardan müasir tədris üsullarına keçid, beynəlxalq təcrübənin mənimsənilməsi və tətbiqinin əhəmiyyəti barədə məlumat verib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında elm və təhsilin qarşılıqlı əlaqələrindən və paralel inkişaf istiqamətlərindən, regionda elmi kadr hazırlığı prosesində ali təhsil müəssisələrinin müstəsna rolundan danışıb.

Plenar iclasda Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli “Təfəkküryönümlü kurikulum və gələcəyə baxış”, İstanbul Əsənyurd Universitetinin əməkdaşı Davud İbrahimoğlu “Pozitiv düşüncə və beynin uyğun öyrənilməsi”, Bakı Biznes Universitetinin professoru, pedaqogika üzrə elmlər doktoru Fərahim Sadıqov “Pedaqoji elmin banisi Y.A.Komenskinin vətəni Çexiyada təhsil” mövzusunda məruzələr ediblər.

İkigünlük beynəlxalq elmi konfrans öz işini 8 bölmə iclasında davam etdirir.

**Mehriban SULTAN**




## Naxçıvan Muxtar Respublikası – 90

*Naxçıvan geosiyasi mövqeyi baxımından mühüm əhəmiyyət kəsb edən bir diyardır, Türk dünyasını bir-birinə bağlayan körpüdür. Naxçıvan "Türkün qapısı"dır. Bu qapının açıq olması Türk dünyasının beynəlxalq siyasətdə güc qazanması, türkdilli dövlətlərin güclü olması deməkdir. Bu məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın geosiyasi mövqeyini, Türk dünyasında daşıdığı önəmi təhlil etməyə çalışmışıq. Naxçıvanın ərazi bütövlüyünün qorunması və muxtariyyət statusu Qars müqaviləsi ilə əldə edilmiş tarixi reallıqdır. Bəs bu anlaşmaya gedən yol haradan başlayır?*

# Naxçıvanın muxtariyyət statusu ölkəmizin ərazi bütövlüyünün qorunmasına imkan verib

Naxçıvanın ərazi taleyinin müəyyənləşdirilməsi və muxtariyyət statusunun Qars müqaviləsinə əsasən əldə etməsi tarixi həqiqətdir. Lakin bunu da xüsusilə qeyd etmək lazımdır ki, Qars müqaviləsinə gedən yol 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumdan başlanır. Həmin referendum Azərbaycan İnqilab Komitəsinin 1 dekabr və Ermənistan İnqilab Komitəsinin 26-28 dekabr 1920-ci il tarixli bəyannamələrinə əsasən, Naxçıvanın sovet Ermənistanına verilməsi məsələsi qarşısında mahir diplomat Behbud ağa Şahtaxtinskinin göstərdiyi qətiyyətli fəaliyyət nəticəsində baş tutmuş və məhz həmin referendumda Naxçıvan əhalisinin yekdil rəyi əsasında bu diyar Ermənistanın tabeliyinə verilməkdən xilas edilmiş, həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazanmışdır. Bu referendum özünün siyasi əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər əhəmiyyətə malik siyasi hadisədir. Əgər Naxçıvanın ərazi taleyinə dair 1921-ci ilin yanvar referendumu keçirilməsəydi, bəlkə də, Moskva və Qars müqavilələrinə heç ehtiyac da qalmayacaqdı. Bu, Azərbaycan diplomatiyası tarixində Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olan, mərkəzi hökumətlə razılaşdırılmamış nadir və uğurlu diplomatik gediş idi. Şübhəsiz ki, 1 dekabr və 26-28 dekabr 1920-ci il tarixli bəyannamələrin arxasında mərkəz dayanmışdı. Buradakı əsas məqamlara diqqət çəkmək lazımdır.

Əvvəla, Ermənistan Sovet Sosialist Respublikasının ilkin addımı kimi 29 noyabr 1920-ci ildə İnqilab Komitəsi qurulmuşdu və sovet Rusiyası Ermənistanın sovetləşməsini tezləşdirirdi. Hakimiyyət isə daşnak hökumətinin əlində idi və uzun illər idi ki, müharibə yolu ilə Naxçıvan diyarını əldə edə bilmirdi. Lakin Ermənistanın sovetləşər-sovetləşməz bəyannamələr qəbul etməsi ilə Rusiya ermənilərə onu göstərmək istəyirdi ki, daşnakların illərdən bəri güc yolu ilə ala bilmədiyi Naxçıvan, sadəcə, bir sözlə sovet Ermənistanına veriləcəkdir. Beləliklə, müharibə yolu ilə alına bilməyən ərazilər qələmlə hədiyyə edilməklə daşnak hökuməti gözdən düşürüləcək, əhalinin sovet idarəsinə alışması, ermənilərin torpaq iddiaları təmin olunacaq və digər "hədəflərin" reallaşması üçün sovet Rusiyasına ümid gözü ilə baxılacaqdı. Göründüyü kimi, Rusiya bu yolla öz gələcək fəaliyyətini müəyyənləşdirirdi. Lakin mövcud mürəkkəb şəraitdə mərkəzin bu planını pozan məhz Behbud ağa Şahtaxtinski oldu. Düşünülmüş diplomatiya ilə bütün Türk dünyasını bir-birinə bağlayan, əlaqələri təmin edən bir körpü kimi Naxçıvanın "Türk qapısı" olaraq milli dövlətçilik mövcudiyyətinin qorunub saxlanılması məhz onun sayəsində mümkün olmuşdur.

Behbud ağa Şahtaxtinski Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı bildirmiş, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermiş, nəticədə, bu təkliflər bəyənilərək RK(b)P MK Siyasi Bürosunda müzakirə olunmuş və Azərbaycan SSR tərkibində Naxçıvan SSR-in təşkil edilməsi haqqında qərar qəbul edilmişdir.

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında keçirilən görüşlərdə də qızğın müzakirə mövzusu olmuşdur. Türk heyəti 2 dekabr 1920-ci il tarixli Gümrü anlaşmasının qüvvədə olduğunu müdafiə edərkən rus nümayəndələr bu anlaşmanı, dolayısı ilə, Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. 9 mart tarixli görüşlərdə Naxçıvanın muxtar statusa sahib olması və başqa bir dövlətə verilməməsi şərti ilə himayəsinin Azərbaycana verilməsi qərarlaşdırılmış, digər məsələləri də özündə ehtiva edən Moskva müqaviləsi imzalanmışdır (16 mart 1921).

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edilmişdir. Bu müqavilə eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etmişdir; Rusiya və Türkiyə sıx ittifaqda birləşərək müttəfiqə çevrilmişdilər.

Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri, xüsusilə ərazi problemlərini nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi.

Moskva müqaviləsi ilə şərq sərhədlərini müəyyənləşdirən Türkiyə Qarsda da Cənubi Qafqaz respublikalarının hər biri ilə ayrı-ayrılıqda müqavilələr imzalamaq istəsə də, Behbud ağa Şahtaxtinskinin vahid müqavilə bağlanmasının Cənubi Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olacağı, inqilabi zərurətin bunu tələb etməsi təklifindən sonra 13 oktyabr 1921-ci il tarixdə ümumi müqavilə imzalanmışdır. 20 maddə və 3 əlavədən ibarət olan bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqi, zorla qəbul etdirilən müqavilələr, əsas olaraq da Sevr müqaviləsi rədd edilirdi.

Çox gərgin, prinsipial şəraitdə keçən və 18 gün davam edən Qars konfransında imzalanan müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsinə əsasən, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusu təsbit edilmiş və bu status məsələsində razılığa gələn tərəflər – Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri müəyyən olunmuşdur.

Qeyd olunan maddədə yazılır: "Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin 3-cü əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir".

Naxçıvanlıların əzmkar mübarizəsi ilə görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin siyasi gedişləri nəticəsində Moskva və Qars kimi beynəlxalq müqavilələrlə Naxçıvanın taleyi həll olunmuş, gələcək siyasi-hüquqi statusu müəyyənləşdirilmişdir.

Qars müqaviləsi müddətsiz imzalanmışdır və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Müqavilə 1922-ci ilin mart-iyun aylarında onu imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin ilin 11 sentyabrında qüvvəyə minmişdir.

Qars müqaviləsilə muxtariyyətin əsası qoyulmuş, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılmış, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmişdir. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Naxçıvanın muxtariyyət statusu daim ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuş, ulu diyarın hərtərəfli inkişafını təmin edən sosial-iqtisadi siyasət yürüdülmüşdür. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. Məhz həmin siyasətin nəticəsidir ki, bir vaxtlar Qars müqaviləsinə əsasən ərazi taleyi həll edilən Naxçıvan Muxtar Respublikasının ölkəmizin xarici siyasəti kontekstində xarici əlaqələri və diplomatiyası xeyli inkişaf etməkdədir.

Son illər xarici ölkələrin Bakıdakı diplomatik nümayəndələrinin və bir çox beynəlxalq təşkilatların rəhbərlərinin, xarici şirkət nümayəndələrinin Naxçıvana mütəmadi səfərləri muxtar respublikanın strateji əhəmiyyətinin göstəricisinə çevrilmişdir. İranın, Türkiyənin dövlət və hökumət başçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşlərinin, eyni zamanda 2009-cu ilin oktyabr ayında Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının məhz Naxçıvanda keçirilməsi muxtar respublikanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə böyük töhfə olmuşdur.

Son illər muxtar respublikamıza və onun Konstitusiyasına Avropa Komissiyasının, Venesiya Komissiyasının verdiyi müsbət rəy xüsusilə qeyd edilməlidir. Rəydə deyilir: "Naxçıvan Muxtar Respublikası digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malikdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası bütövlükdə muxtariyyətin idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyətlərinin səlahiyyətlərinin və əsaslarının müəyyənləşdirilməsində model kimi çıxış edə bilər".

*Bütün bu diplomatik fəaliyyət qədim diyarımıza qarşı əsassız iddiaların hələ də davam etdiyi müasir şəraitdə Naxçıvanın muxtariyyət statusunun və onun Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmasına xidmət etməklə bərabər, Naxçıvan Muxtar Respublikasının beynəlxalq mövqeyinin və siyasi-iqtisadi potensialının gücləndirilməsinə səbəb olan uğurlu, çoxşaxəli siyasətlə nəticələnməkdədir.*

**Emin ŞIXƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

# Dünəndən bu günə gələn yolda muxtariyyət illərimiz

## *Bu illər Ordubad rayonunda da pozulmaz izlər salıb*

### *Tarixdən gələn səslər və ya muxtariyyətəqədərki dövrə ümumi baxış*

Tarixi minilliklərə sığmayan, hər daşında, qayasında ulu babalarımızın izləri yaşayan doğma odlar yurdumuzun xəritəsində kiçik bir yer tutur Ordubad – Naxçıvan adlı sevgimin, doğulub boya-başa çatdığım yurdun bir parçası.

Kiçik Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan Qapıcığı, həmçinin Böyük Soyuğu, Təkə qalasını, Salabin təpəsini qoynuna alan yurd yeri ecazkar Ordubad.

İlkin yaşayış məskənlərimizdən biri Ordubaddadır. Bu, Nuhun ayağı dəydiyi torpaqdır – Gəmiqaya.

XVII əsr tarixçisi İ.Münşi bu qədim yurd yerimiz haqqında yazırdı: "Günəş Ordubadın ulduzudur. O, behiştə verilən tərifə layiqdir. Huri-mələklərin gözünü onun Nəzərə dağı işıqlandırır".

Ulduzu Günəş olan, tərifi behiştin tərifi ilə yanaşı tutulan bu qədim torpağın tarixini öyrənmək üçün ən etibarlı qaynaq bu şəhərin, bu rayonun tarixi-memarlıq abidələridir. Bu gün iki böyük şəhərin izləri yaşayır Ordubadda – Gilan və Azad şəhərlərinin. Onlar özlərində saxladığı izlərlə tariximizi bizə danışır, bugünkü nəsillərə söyləyir, bu salnaməni qorumağa, yaşatmağa çağırır. Elə bu tarixi özündə hifz edən abidələrə əsasən, Ordubad şəhərinin ilkin qurulmasının V-VI əsrlərə aid olması güman edilir. Tarixi mənbələrdə isə adı ilk dəfə VII əsrdə çəkilir.

Ordubad şəhərinin qədim məhəllələrini gəzərkən özünü sanki İçərişəhərdə hiss edirsən. Sırf bu yurd yerinə məxsus arxitektura üslubunda tikilmiş evlər səni nağıllar dünyasına aparır: insan təfəkkürünün gücünə heyran qalmaya bilmirsən.

...Babək qalası Ordubadın qəhrəmanlıq qalasıdır.

Soyuq, Əcnövür, Bəlgə, Fələkbaba, Nəzərə dağlarının hərəsi yağı düşmənə baş əyməyən bir sipərdir. Zorxanası, Buzxanası bu günümüzlə dünənimiz arasında körpüdür.

### *Muxtariyyət illərinin Ordubadı*

Bu dövrün özünü də iki mərhələyə ayıra bilərik. 1924-cü ildən 1995-ci ilə qədərki dövr və həmin vaxtdan bu günədək olan zaman kəsiyi. Muxtariyyət əldə etdikdən sonra digər bölgələrimiz kimi, bu qədim yurd da yeni bir yola qədəm qoyub. 1969-cu ildən sonra isə tikinti-quruculuq işləri genişləndirilib, rayon mərkəzində və böyük kənd yaşayış məntəqələrində müxtəliftəyinatlı obyektlər həyata vəsiqə alıb. Bu gün Ordubad şəhərindəki bütün ictimai yaşayış binaları, bir neçə inzibati obyekt muxtariyyət illərinin yadigarlarıdır. Bu illərdə sənayenin, kənd təsərrüfatının inkişafı istiqamətində də tədbirlər həyata keçirilib. 1926-cı ildə Ordubadda barama toxumu istehsal edən zavod və corab-kəlağayı fabriki fəaliyyətə başlayıb. Hələ 19-cu əsrin sonlarından rayonda ipəkçilik inkişaf etdirilməyə başlamışdı. XX əsrin əvvəllərində artıq Ordubadda güclü ipəkçilər yetişmişdi. Onların istifadə etdikləri texnoloji avadanlıqlar burada yüksəkkeyfiyyətli ipək istehsalına imkan vermişdi. 1924-1940-cı illərdə bölgədə xam ipək istehsalı 2 min tondan 17 min tona çatdırılmışdı. Bu qiymətli məhsullar 13 dəfə qızıl medala layiq görülmüşdü. Rayon mərkəzindəki baramaaçan fabriki iki növbədə işləməklə burada yüzlərlə ordubadlı özünə iş yeri tapmışdı.

Naxçıvanda yeyinti sənayesinin bünövrəsi də Ordubadda qoyulub. Belə ki, 1928-ci ildə Ordubadda meyvə-konserv zavodunun fəaliyyətə başlaması burada yeni iş yerlərinin yaradılmasına və bölgədə yetişdirilən dadlıtamlı meyvələrdən istifadə edərək müxtəlif konservlər hazırlanmasına imkan vermişdi. Zavodda cəviz, tut, alma, heyva, armud, şaftalı, gilənar, gilas, qızılgül mürəbbələri, kompotlar hazırlanaraq SSRİ-nin müxtəlif respublikaları ilə yanaşı, xarici ölkələrə də göndərilirdi. Burada yetişdirilən meyvələr dəfələrlə beynəlxalq sərgilərə çıxarılmış, 9 qızıl medal almışdı.

Rayonda yaradılmış ictimai təsərrüfatlarda torpaqlardan səmərəli istifadə olunur, üzümçülük və heyvandarlıq inkişaf etdirilir, istehsal edilən məhsullar rayon iqtisadiyyatının gücləndirilməsinə, ordubadlıların maddi rifah halının yaxşılaşdırılmasına öz təsirini göstərirdi.

400-ə yaxın alim yetişdirən Ordubadda təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı istiqamətində də gözəçarpan nailiyyətlər əldə edilib. Ötən əsrin 70-80-ci illərində Ordubad şəhərində, Dəstə, Vənənd, Sabirkənd və başqa yaşayış məntəqələrində təhsil, səhiyyə və mədəniyyət müəssisələri üçün yeni binalar inşa olunub. Bir neçə muzey yaradılıb. Azərbaycan Elmlər Akademiyasının Ordubad şəhərində 2 xüsusi elmi-texniki konstruktor bürosu fəaliyyət göstərib.

*Ardı 4-cü səhifədə*

Əvvəli 3-cü səhifədə

Ordubad şəhərinin qoruq şəhəri statusu alması da muxtariyyətin bu bölgəyə verdiyi töhfədir.

Sovet dönəminin son illərində bütün bölgələrimiz kimi, Ordubad rayonu da baş verən hadisələrdən sığortalana bilmədi. Ölkədə tüğyan edən anarxiya, xaos, özbaşınalıq Ordubadın da qaynar həyatını pozdu. Bəzi idarə və müəssisələr fəaliyyətini müvəqqəti olaraq dayandırdı. XX əsrin 70-80-ci illərində yaradılmış emal və istehsal müəssisələri iflic vəziyyətə düşdü. Bərəkətli torpaq sahələri əkilməmiş qaldı. Çətinliklər ordubadlıları sıxsa da, onlar doğma yurd yerindən üz döndərmədilər. Vətən, torpaq təəssübü hər şeyə üstün gəldi. Çünki onlar hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanırdılar. Və bu inamlarında yanılmırdılar. Bu ziya xalqımızın ümummilli lideri Heydər Əliyev idi. Ulu öndər Moskvadan Naxçıvana qayıdan sonra Ordubad rayonuna gəldi. Rayon mərkəzindəki böyük meydanda ordubadlıların ulu öndərimizi necə qarşılaması bu sətirlərin müəllifinin gözləri önündədir.

### Muxtariyyətin 1995-ci ildən başlanan yeni dövrü

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ulu öndər bu bölgənin əvvəlki həyat ritminə qayıtması üçün bir sıra işlər görülməsinə nail oldu. Bu isə bu gün də davam etdirilən tədbirlərin təməlidir. Böyük inkişaf və yeni tərəqqi müstəvisində olan Ordubadda son 19 il ərzində həyatın bütün sahələrində güclü yeniləşmə diqqəti çəkir. Bu dövrdə rayonda 24 yeni məktəb binası inşa olunub, 13 kənd mərkəzi istifadəyə verilib. Kənd mərkəzlərinin yerləşdikləri yaşayış məntəqələrində fəaliyyət göstərən klub, mədəniyyət evi, kitabxana, ATS, rabitə evi, polis və baytarlıq məntəqələri üçün müasir iş şəraiti yaradılıb. Parağa kəndində 18, Bistdə 5, Ələhidə 1, Nəsirvazda 4, Ordubad şəhərində 2 olmaqla, 30 qaçqın ailəsi üçün bütün məişət şəraiti olan mənzillər inşa edilib. Doqquz Qarabağ əlili, 3 şəhid, 1 əlil ailəsi də belə qayğıdan yararlanıb. Tarixi-memarlıq abidələri olan Qeysəriyyəyə, Ordubad hamamına, 1 məbədə, 2 yeraltı abidəyə ilkinliyi saxlanılmaqla yeni həyat verilib.

Rayonda həyata keçirilən quruculuq tədbirlərinin bir qolunu da xidmət mərkəzləri təşkil edir. Bu cəhətdən də Ordubad rayonu öndə gedən bölgələr sırasındadır. Hazırda 14 xidmət mərkəzi əhalinin istifadəsindədir. Ordubadlıların sağlamlığı keşiyində dayanmaq məqsədilə 21 səhiyyə ocağı yeni binada fəaliyyətini davam etdirir. Ötən dövrdə rayondaxili yollarda cari və əsaslı təmir işləri aparılıb, hazırda da bu tədbirlər davam etdirilir.

Bu dövrdə aqrar sahənin inkişafına xüsusi önəm verilib. Torpaq kənd adamlarının daimi iş yerinə çevrilib. Torpaq mülkiyyətçilərinin torpaqlardan səmərəli istifadəsi üçün meliorasiya və irriqasiya tədbirlərinin aparılması, onların müasir kənd təsərrüfatı texnikaları ilə təchizatı, kredit və yardımlarla təmin olunmaları diqqət mərkəzində saxlanılıb. Rayonda güclü sahibkarlıq mühiti yaradılıb. Rayon mərkəzi ilə yanaşı, kənd yaşayış məntəqələrində yeni emal və istehsal müəssisələri fəaliyyətə başlayıb. Bütün bunlar əhalinin həyat səviyyəsini yüksəldib.

### "Muxtariyyət ili"nin bəhrələri və ya bu ilin töhfələri

Bir az əvvəl bəhs etdiyimiz qısa zaman kəsiyi, bu zaman kəsiyində həyata keçirilən tədbirlər rayonun simasını əsaslı surətdə dəyişməklə 90 illik muxtariyyət tariximizin ən şərəfli səhifələridir. Bu səhifələrdə "Muxtariyyət ili"nin 11 ayının nəticələri də böyük uğurlarla diqqəti çəkir. Bu dövrdə tikinti-quruculuq işləri davam etdirilib. Aşağı Əylis kəndində məktəb və kənd mərkəzi istifadəyə verilib. Yuxarı Əylis kəndində məscid binası tikilib. Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsi cari ilin aprel ayından fəaliyyətini yeni binada davam etdirməyə başlayıb. Dübəndi çayı üzərində salınmış şəhər parkında bənd və şəlalə istifadəyə verilib. Akademik Yusif Məmmədəliyevin və yazıçı Məmməd Səid Ordubadinin ev-muzeyləri, Buzxana tarixi-memarlıq abidəsi, Ordubad şəhər internat məktəbinin binası təmir olunub. Hazırda tikintisi və təmir-bərpa işləri aparılan obyektlər də az deyil. Ucqar dağ kəndi Nürgütdə kənd mərkəzi, şəhərdəki 3 nömrəli tam orta məktəb, aviakassa üçün yeni binalar və Məhəmməd Tağı Sidqinin ev-muzeyi inşa olunur.

Bu bölgə haqqında qeydlərimizi oxuyanlar yazımızın əvvəlində Ordubad haqqında deyilən qürurverici fikirlərə nə isə əlavə etmək istəyində ola bilərlər. Çünki saatbasaat dəyişən, gözəlləşən Ordubad bu gün ayrı büsatdadır. Bu büsatın təməlində muxtariyyətimiz, muxtar respublikanın bütün bölgələrinə göstərilən dövlət qayğısı durur. Qədim yurd yeri belə qayğı işığında daha gözəl sabahlara addımlayır.

Addımların möhkəm olsun.

**Muxtar MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikasının qurucularından biri – *Mirzə Əbdüləzim Rüstəmov*

*Naxçıvan Muxtar Respublikasının yaradılmasında iştirak edən və həyatını gənc nəslin maariflənməsində şam kimi əridən unudulmaz şəxsiyyətlərdən biri də Mirzə Əbdüləzim Rüstəmovdur. Bu ictimai xadim, maarif fədaisi haqqında axtarışlara 1980-ci illərdən başlamışıq. Həmin illərdə onun sədaqətli həyat yoldaşı Fatma xanım Nəsirbəyova sağ idi və Əbdüləzim müəllimə aid sənədlərin və fotoşəkillərin hamısını qoruyub saxlayırdı. Həmin şəxsi arxivlə tanışlıq zamanı və sonralar da hiss etdim ki, bu böyük şəxsiyyət niyəsə "unudulmuşlar" siyahısındadır. Axtarışları arxivlərdə davam etdirdikcə hər şey mənə aydın oldu. Onun 1918-1920-ci illərdə Naxçıvanın və eləcə də Zəngəzurun erməni daşnaklarından müdafiəsində böyük xidmətləri olub. Sonralar Naxçıvanda siyasi işlərdə fəal iştirak edib və onun taleyində Naxçıvan tarixi mühüm rol oynayıb.*



Ömrünün ən gözəl, cavan çağlarını xalqın maariflənməsi, savadlanması işi uğrunda mübarizəyə sərf edən fədailərdən biri də Əbdüləzim Rüstəmov olmuşdur. O, 1887-ci ildə keçmiş Zəngəzur qəzasının Şəki kəndində yoxsul kəndli Talıb kişinin ailəsində dünyaya göz açıb, ilk təhsilini məscid-mədrəsə məktəbində alıb.

XIX əsrdə Naxçıvanın demokrat maarifçilərindən biri – Qurbanəli Şərifzadə qayınatası Talıb Rüstəmovun oğlu Əbdüləzimdəki (qaynı) oxumaq həvəsinə ürəkdən sevinərək onu Naxçıvan şəhərinə gətirib ikisinifli rus-Azərbaycan məktəbinə qəbul etdirir. Bu məktəbi əla qiymətlərlə bitirən Əbdüləzim Rüstəmov ikinci dərəcəli Naxçıvan şəhər məktəbinə daxil olur və 1906-cı ildə həmin məktəbdə təhsilini başa vurur. Rus dilini yüksək səviyyədə öyrənən Əbdüləzim xüsusi müəllim yanında biliyini təkmilləşdirərək imtahan verir və ibtidai məktəbdə dərs demək hüququ qazanır. Onu 1907-ci ildə Cəhri kəndindəki məktəbə müdir göndərirlər. Sonra indiki Culfa rayonunun Yaycı kəndinə məktəb müdiri vəzifəsinə dəyişdirilir.

1913-cü ildə isə M.Ə.Rüstəmov doğma Şəki kəndinə müəllim təyin edilir. O, 1918-ci ilədək Şəkidəki ikisinifli məktəbin müdiri vəzifəsində çalışır. Xatırlatmaq yerinə düşər ki, Əbdüləzim müəllimin maraqlı, qaynar gənclik illəri onun bacısı oğlu, mərhum ədəbiyyatşünas alimimiz Əziz Şərifin "Keçmiş günlərdən" kitabında məhəbbətlə təsvir edilib...

Azərbaycan ziyalıları içərisində xüsusi nüfuza və dərin biliyə sahib olan Qurbanəli Şərifzadənin əvəzsiz xidməti və zəhməti sayəsində Əbdüləzim Rüstəmov işlədiyi ilk illərdən şagirdlərin və valideynlərin sevimlisinə çevrilib, onların hörmətini qazanıb. O, 1918-1920-ci illərdə Naxçıvanın erməni daşnaklarından müdafiə olunmasında naxçıvanlılarla bir yerdə olub və döyüşüb. Bu ziddiyyətli illərdə Naxçıvanın Azərbaycanın tərkibində qalması uğrunda mübarizə aparıb. O illərin çətin sınaq vaxtlarında naxçıvanlılar hamısı həmrəy idilər: nə olursa-olsun, Naxçıvan ermənilərə verilməyəcək.

Məlum tarixi hadisələrin burulğanında bolşeviklərin ordusunun Zəngəzura gəldiyini eşidən Naxçıvan ziyalıları onlarla danışmaq üçün bir heyət hazırlayırlar. M.Ə.Rüstəmov həmin heyətin üzvü olub. Qeyd edək ki, M.Ə.Rüstəmov 1917-ci ildə Naxçıvanda fəaliyyət göstərən "Hümmət" təşkilatına üzv olmuşdu.

Tarixi sənədlərdən məlumdur ki, Naxçıvan və Culfa "Hümmət" qrupunun başında Naxçıvanın tanınmış ziyalıları dururdular. Unudulmaz tarixçimiz Əli Əliyev yazır: "Naxçıvan "Hümmət" qrupunun həbs olunan üzvləri 1917-ci il fevral inqilabına kimi İrəvan quberniya həbsxanasında siyasi məhbus kimi saxlanmışdılar. Çar mütləqiyyəti yıxıldıqdan sonra Mirzəlibəy Bektaşi başda olmaqla "Naxçıvan "Hümmət" qrupunun üzvləri siyasi məhbusluqdan azad edildilər".

Əli Əliyev "Hümmət" qrupunun yeni tərkibindəki siyahıda Əbdüləzim Rüstəmovun da adını qeyd etmişdi. "Hümmət"çilər Naxçıvanın xilas edilməsində xüsusi fəallıq göstəriblər. Onlar Amerikanın və Qərbi Avropa ölkələrindən İngiltərənin Naxçıvanı ermənilərə vermək niyyətlərini öyrənən kimi öz nümayəndələrini Ərikli gədiyinə gəlib çatan bolşevik ordusu ilə danışığa göndərirlər.

Sonralar həyatının çətin illərində M.Ə.Rüstəmov bu haqda öz tərcümeyi-halında yazırdı: "1920-ci ildə yerli təşkilat tərəfindən bolşevikləri qarşılamağa göndərildim. Onları qarşılayıb bələdçilik edərək Naxçıvana varid oldum. Hərbi təşkilatlar qurulduqdan sonra məni mahal milis müdiri vəzifəsinə qoydular. Sonra maarif komissarı, ədliyyə komissarı vəzifələrində işləyərək 1922-ci ilin axırlarınadək var qüvvəmlə şura hökumətini Naxçıvan ölkəsində möhkəmlətmək uğrunda çalışdım". Bununla bağlı bəzi fikirlərimizi sonraya saxlayaq, yenidən 1920-ci ilin hadisələrinə qayıdaq.

1920-ci il oktyabrın 10-da Naxçıvan İnqilab Komitəsinin birləşmiş iclasında Xalq Maarif Şöbəsinin də yaradılması qərara alınır. Naxçıvan Xalq Maarif Şöbəsinin müdiri Əbdüləzim müəllim təyin olunur.

İnqilab komitəsinin bu böyük etimadını o, ləyaqətlə doğruldur. Var qüvvəsini əsirgəmədən yenitipli məktəblərdə müəllimləri zəhmətkeş balalarına dərs demək üçün səfərbərliyə alır, gecə kursları təşkil edir və sair.

1922-ci il avqustun 28-də Naxçıvan Dövlət Dram Teatrının binasında (bu bina indiki böyük bağda yerləşib) Naxçıvan respublika müəllimlərinin I Müəllimlər Qurultayında M.Ə.Rüstəmov Naxçıvanda Müəllimlər Seminariyasının açılmasının vacibliyi haqqında məruzə edib. Üç gün davam edən bu qurultayda geniş müzakirələrdən sonra seminariyanın yaradılması qərara alınıb. Yaradılan seminariyaya (Darülmüəllim – sonralar texnikum) ilk direktor Xəlil ağa Hacılarov, müavin isə M.Ə.Rüstəmov təyin olunub.

Sənədlərdən və xatirələrdən məlum olur ki, Əbdüləzim Rüstəmov bu çətin, vacib və məsul vəzifələrin öhdəsindən gəlmək üçün var qüvvəsilə çalışıb. Onu da qeyd edək ki, Əbdüləzimin şəxsi arxivində o günlərin yadigarı olan qiymətli fotoşəkillər var idi. Naxçıvan İnqilab Komitəsinin sədri Qəraf Əsgərovun imzası ilə Əbdüləzim Rüstəmova 1921-ci il yanvarın 22-də belə bir vəsiqə verilir:

"Həmin vəsiqə Əbdüləzim Rüstəmova ona görə verilir ki, Naxçıvan ölkəsinin Xalq Maarifi, Ədliyyə və Təbliğat Şöbəsinin müdiridir..."

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində Mirzə Əbdüləzim Rüstəmovun 1936-1938 və 1948-ci illərdə tərtib edilmiş şəxsi işləri ilə tanışlıq bir çox qaranlıq məsələlərə aydınlıq gətirir.

Onun xidmətlərinə baxmayaraq, 1926-cı ildən təqib edilən Mirzə Əbdüləzim Rüstəmovu 1941-ci il iyun ayının 24-də həbs edirlər. Naxçıvanda məhkəməsi qapalı keçir. Naxçıvan Ali Məhkəməsi ona 8 il həbs cəzası verib 4 il səsvermədən məhrum edir. Arxiv işində Naxçıvan MSSR Ali Məhkəməsinin hökmü var. Hökm 31 dekabr 1941-ci ildə verilib. Deməli, həbs ediləndən 6 ay sonra A.Daşdəmirovun sədrliyi ilə məhkəmə keçirilib. M.Ə.Rüstəmovu sovet hökumətinin əleyhinə təbliğat aparmaqda və Türkiyəyə casusluq etməkdə təqsirkar biliblər.

Əbdüləzim Rüstəmovun əleyhinə ifadə verənlər onun yaxından tanıdığı və dostluq etdiyi şəxslər idi. Paxıllığını çəkənlər onun xeyirxah əməllərinə qara yaxmağa çalışırdılar. O, 1921-ci ildə yaxın qohumu, milyonçu M.H.Nəsirbəyovun qızı ilə evlənmişdi. Bunu da ona böyük nöqsan sayırdılar. Mirzə Əbdüləzim isə hər vəchlə verilən ifadələrin böhtan olduğunu, heç nədə günahı olmadığını bildirirdi. Sənədlərdən məlum olur ki, axıradək öz sözünün üstündə durmuşdur.

Qeyd edək ki, o, bir müddət Bayıl həbsxanasında qaldıqdan sonra Gədəbəyin mis mədənlərində işləyib. Mirzə Əbdüləzim Rüstəmovun o vaxtlar Moskvaya yazdığı məktub və ərizələrin surətini də Fatma xanım saxlayırdı. Hamısını oxumuşam. Həmin məktublardan, ərizələrdən məlum olur ki, M.Ə.Rüstəmov ona atılan qara ləkəni – böhtanı yox etmək üçün ömrünün axırınadək çalışıb. Sonralar Naxçıvana qayıtmağa icazə versələr də, ona tam bəraət verilməmişdi. Onu tanıyanlarla, birlikdə işlədiyi adamlarla vaxtı ilə söhbətlər edib xatirələr də toplamışam.

Onun yetirmələrindən biri, Azərbaycan SSR-in Əməkdar müəllimi Məmməd Bəktaşi onu xatırlayaraq deyirdi: "Mirzə Əbdüləzim (Naxçıvanda və Şəkidə ona ehtiramla "Mirzə" deyə müraciət edirdilər – müəllif) mənim müəllimim olub. Sonralar çiyin-çiyinə müəllim işləmişik. O, yüksək savadlı, dərin zəkalı, milli, qətiyyətli, tələbkar, vətənpərvər pedaqoq idi. Rus dilini bizə çox yaxşı öyrətmişdi. Ömrünün sonuna qədər Naxçıvan məktəblərində, pedaqoji məktəbdə (texnikumda) rus dilini tədris etdi. Mərd ziyalı idi, sözü üzə deyərdi. Bəzən çoxları buna görə ondan "incik" düşürdülər..."

Mirzə Əbdüləzim Rüstəmovun bəzi istintaq sənədlərindən məlum olur ki, onu 1918-1920-ci illərdəki fəaliyyətinə görə çox incidirmişlər. Bununla bərabər, onun ailəsinə, övladlarına olmazın əziyyətlərini verirmişlər.

Mirzə Əbdüləzim Rüstəmovun müəllim könlü bir an da olsun, xalqdan ayrılmayıb. O, dərin məhəbbətlə doğma Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpağına, bu yurdun zümrüd meşələrinə, boz çöllərinə, zirvəsi qarlı dağlarına bağlı idi.

1953-cü ildə 66 yaşında Naxçıvanda bu fani dünyadan köç edən Əbdüləzim Rüstəmovun müəllimlik xidmətləri əvəzsizdir. Ona tam bəraət 1956-cı ildə verilsə də, 1969-cu ilədək onun haqqında yazmağa icazə vermirdilər. Çünki o, erməni daşnaklarının və onların havadarlarının arzularını gözlərində qoyanlardan, onlara qarşı mətanətlə döyüşənlərdən biri olub. Yəqin ki, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyində saxlanılan istintaq materialları və Tiflisdəki keçmiş Zaqafqaziya Siyasi İdarəsinin sənədləri ilə ətraflı araşdırmalar apardıqdan sonra bu mövzuya yenidən qayıdacağıq. Mirzə Əbdüləzim Rüstəmovun varisləri bu gün də Naxçıvanda və Bakıda təhsil, mədəniyyət, eləcə də başqa sahələrdə çalışırlar. Bir məsələni də qeyd etmək istərdim. Mirzə Əbdüləzim Rüstəmovun oğlu Rüstəm müəllimin vəfatından sonra şəxsi arxivini mənə bağışlayıblar. Orada atasına aid maraqlı fotoşəkillər və sənədlər də vardır. Bunları da oxucularımıza təqdim edəcəyəm.

***Öz ömrünü xalqın maariflənməsi yolunda şam kimi əritmiş və lazım gələndə qələmini silahla əvəz etmiş mətin insan, Naxçıvanın ilk maarif və ədliyyə komissarı Mirzə Əbdüləzim Rüstəmovun hər zaman Naxçıvan tarixində xatırlanmağa mənəvi haqqı vardır.***

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

### İtmişdir

Babək rayonunun Cəhri kəndində yaşamış Abdullayev Tatar Xanlar oğlunun adına olan JN-074[A] inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina 4[D], mənzil 46-da yaşayan Abdinov Rövşən Möhsün oğlunun adına olan evin 5526 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1050